

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (23.653)

19 yanvar 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 18-də Sumqayıt Kimya Sənaye Parkında "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməli qoyulub, "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirlərdə iştirak edib. Dövlətimizin başçısı müəssisənin təməlini qoyub.

Bildirilib ki, təkcə son 3 ildə Azərbaycana hər il 5-10 min ton sulfat turşusu idxal edilir və bu zavodun fəaliyyətə başlaması ilə idxal yerli istehsalla əvəz olunacaq. Məhsulların növbəti mərhələlərdə Gürcüstana və Rusiyaya ixrac edilməsi də planlaşdırılır.

Prezident İlham Əliyev şüşə tara məhsullarının (butulka) istehsalı zavodunun da təməlini qoyub. Dövlətimizin başçısına məlumat verilib ki, Azərbaycanda daxili bazarın rəngli butulkaya olan tələbatı, təqribən, 45-50 milyon ədəd arasında dəyişir. Zavodda 60-90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsullarının istehsalı nəzərdə tutulur. Yəni daxili bazarın tələbatı tam ödənilir, nəticədə, ixrac perspektivi yaranır.

Dövlətimizin başçısı "Azərfloat" QSC-nin vərəqə şüşə istehsalı zavodunu işə salıb. Məlumat verilib ki, hazırda ölkədə vərəqə şüşələrə olan tələbat tamamilə idxal məhsulları hesabına təmin edilir. Vərəqə şüşə şəffaf və ya rəngli, eyni zamanda kiçik və böyük ölçülərdə istehsal olunur.

Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

# Ötən ilin yekunları müzakirə olunub, sessiyadan irəli gələn vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələrə dair kollegiya iclası keçirilmişdir.***

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov məruzə edərək bildirmişdir ki, 2020-ci il təhsil sahəsində bir sıra yeniliklərlə yadda qalmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bununla yanaşı, təhsilin bakalavr pilləsinə, habelə təhsillə bağlı digər imtahanlara hazırlıq kurslarının keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nəzdində "Təhsil Kursları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmiş, "İmtahan Mərkəzi"i yaradılmışdır.

Tətbiq olunan yeniliklər tədris prosesini də əhatə etmiş, 2020-2021-ci tədris ilindən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təlim metodunun tətbiqinə başlanılmış, kabinələr yaradılaraq istifadəyə verilmiş, müəllimlərə təlimlər keçirilmişdir.

Hesabat dövründə öz fəaliyyəti ilə seçilən müəllimlərin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1 nəfər "Tərəqqi" medalına, 6 müəllim isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına, istedadı ilə fərqlənən 2 şagird Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş, onların adı Gənc İstedadların "Qızıl kitabı"na yazılmışdır.

STEAM təlim metodunun tətbiq edilməsi ilə bağlı 6-cı və 7-ci siniflər üçün dərslik və tədris proqramları, "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabı, "İstedadlı şagirdlər" albom-kataloqu nəşr edilmiş, kitabların təqdimatı keçirilmişdir. Həmçinin 2020-ci ildə də "Sabahın tədqiqatçıları" layihəsi, "Tariximizi qoruyaq və yaşadaq!" aksiyası davam etdirilmiş, 400-dən artıq maddi mədəniyyət nümunəsi Mədəniyyət Nazirliyinə verilmişdir.

Təhsil naziri qeyd etmişdir ki, muxtar respublika təhsilinə göstərilən dövlət qayğısı öz bəhrəsini vermiş, uğurlu nəticələr əldə edilmiş, 2020-ci ilin məzunlarının 71 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Məzunlardan 275-i qəbul imtahanlarında 500-700 arası bal toplamış, onlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür. Bununla yanaşı, hesabat dövründə 42 şagird muxtar respublika, 24 şagird respublika fənn olimpiadalarının qalibi olmuşdur. Məzunlardan 17-si qızıl, 17-si gümüş medala, 34-ü isə fərqlənmə attestatına layiq görülmüşdür.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmişdir.

*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2020-ci il ərzində öz işini verilmiş tapşırıqlara, həmçinin "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na və 1 fevral 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilmiş müşavirədə verilmiş tapşırıqlara əsasən qurub. Pandemiya dövrü olmasına baxmayaraq, nazirlik tərəfindən bir sıra vəzifələrin icrası təmin edilib, ötən dövr ərzində gənclərlə iş və idman sahəsində 293 tədbir keçirilib. Bunlardan 150-si gənclərlə iş, 143-ü isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib.

Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Bildirilib ki, ötən ildə mütəmadi olaraq muxtar respublikanın şəhər və rayonlarında gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, onların tarixi yerlərə və muzeylərə gəzintiləri təşkil olunub, intellektual oyunlar keçirilib. Bununla yanaşı, Bakı şəhərində universitet tələbələri arasında keçirilən "Poliqon" strateji intellekt oyunu üzrə III Universiadanın final mərhələsində muxtar respublikanı təmsil edən "Diplomat" komandasının iştirakı təmin edilib, komanda III yerin sahibi olub.

Vurğulanıb ki, 2020-ci il ərzində nazirlik tərəfindən muxtar respublikada idmanın kütləviliyinin təmin edilməsi də diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublika XVIII futbol çempionatının II dövrəsi, Naxçıvan futzal liqası, futzal üzrə "Badamlı-Naxçıvan kuboku" turniri, yeniyetmə və gənclər arasında birinciliklər və yoldaşlıq görüşləri, 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı" keçirilib, idmançıların və komandaların ölkə və beynəlxalq yarışlardakı iştirakı təmin edilib. Həmçinin futzal üzrə Azərbaycan kubokunda "Nəqşicahan" və "Badamlı" komandalarının iştirakları təmin edilib, muxtar respublika şahmatçıları 13 beynəlxalq, 6 ölkə səviyyəli onlayn yarışlarda iştirak edib və ümumilikdə, 37 medal qazanıblar. 1 nəfər idmançının adı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilib, o, aylıq təqaüdə layiq görülüb. Bu dövr ərzində hakimlər və məşqçilər üçün toplanış və seminarlar təşkil olunub, muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrində müxtəlif idman növləri üzrə klublar yaradılıb, Uzunoba Su Anbarı ərazisində çimərlik futbolu meydançasının yaradılması başa çatdırılıb, Təlim-məşq Kompleksinin və Ordubad Şəhər Stadionunun tikintisinə başlanılıb.



Məruzə ətrafında çıxışlar olub.

*

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasında komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli qeyd edib ki, muxtar respublika gömrük orqanları 2020-ci il ərzində 24 milyon 956 min manat vəsait toplayaraq büdcə öhdəliyini 101,1 faiz yerinə yetirib. Toplanmış gömrük ödənişləri Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 21,4 faizini təşkil edib.



Qeyd olunub ki, hesabat dövründə 72 ölkə ilə ticarət əməliyyatları aparılıb, ixracın həcmi 1,9 faiz artıb. İxrac əməliyyatları, əsasən, Gürcüstan, İran İslam, Türkiyə, Əfqanıstan, Yəmən, Oman, İraq, Türkmənistan respublikaları, Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası ilə həyata keçirilib.

Əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, texniki nəzarət vasitələrindən səmərəli istifadə və digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət nəticəsində gömrük sahəsində hüquqpozma hallarına qarşı mübarizənin gücləndirildiyini vurğulayan komitə sədri qeyd edib ki, bir cinayət tərkibli fakt üzrə tranzit olaraq Almaniyaya yük aparan nəqliyyat vasitəsindən 24 kiloqram narkotik vasitə – tiryək aşkar olunub.

Vurğulanıb ki, muxtar respublikamızda "İxrac ili" olan 2020-ci ildə 4 yerli istehsal şirkətinə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə hüququ verilib. Qəbul edilmiş Dövlət proqramlarının icrası ilə əlaqədar xaricdən yerli istehsal sahələrinin və ailə təsərrüfatlarının formalaşdırılması və inkişaf etdirilməsi üçün gətirilən mallara gömrük güzəştləri tətbiq olunub.

Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunduğunu önə çəkən komitə sədri bu məqsədlə 70 tondan artıq ərzaq və qeyri-ərzaq məhsulunun muxtar respublika ərazisinə buraxılmadığını qeyd edib.

İclas çıxışlarla davam edib.

*

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən kollegiya iclasını komitənin sədri Hicran Rüstəmov açaraq bildirib ki, 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 186 milyon 706 min manatlıq inşaat işləri yerinə yetirilib ki, bunun da 176 milyon 402 min manatını və ya 94,5 faizini yalnız tikinti-quraşdırma işləri təşkil edib. Hesabat ilində Ordubad rayonunun Vənənd kəndində 432 yerlik tam orta və uşaq musiqi məktəbləri, Şərur rayonunun Muğancıq-Mehrab kəndində 224, Culfa rayonunun Camaldın kəndində 252, Babək rayonunun Nəcəfalıdizə kəndində 78, Şərur rayonunun Qarabürc kəndində 120 şagird yerlik tam orta məktəb binalarının, Culfa Rayon Təhsil Şöbəsinin və məktəbdənkənar təhsil müəssisələrinin binası istifadəyə verilib. Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin, uşaq bağçasının tikintisi, Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsi üçün binanın, Şərur rayonunun Şəhriyar kəndində tam orta məktəb və uşaq musiqi məktəbi binalarının, Ordubad şəhərində və Nüsnüs kəndində məktəb binalarının yenidən qurulması davam etdirilib.



Qeyd olunub ki, 2020-ci ildə Şərur Rayon Mədəniyyət Sarayının və "Saat Meydanı"nın, Şahbuz rayonunda Tarix-Diyarşünaslıq Muzeyinin, Şərur və Sədərək rayonlarında Bayraq meydanlarının tikintisi davam etdirilib.

Diqqətə çatdırılıb ki, 2020-ci ildə Naxçıvan şəhərində "Gənclər Yaşayış Kompleksi"nin və 1 yaşayış binasının tikintisi, 9 yaşayış binasının yenidən qurulması, Ordubad rayonunda 1 yaşayış binasının tikintisi, Babək şəhərində bazar kompleksinin tikintisi, Şərur rayonunda 1, Culfa rayonunda 2 yaşayış binasının yenidən qurulması başa çatdırılıb, Naxçıvan şəhərində 1 yaşayış binasının tikintisi, 5 yaşayış binasının, tələbə yataqxanasının yenidən qurulması, Şərur və Şahbuz rayonlarının hər birində 1 yaşayış binasının tikintisi, Şərur və Culfa rayonlarının hər birində 1 yaşayış binasının yenidən qurulması davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov bildirib ki, ötən il ərzində muxtar respublikada 43 kilometrə yaxın yeni asfalt yol salınıb, 4 körpü tikilib və ya əsaslı təmir olunub. Hesabat ilində Naxçıvan Muxtar Respublikası Süni Mayalanma Mərkəzinə gedən avtomobil yolunun, Culfa Rayon Rabitə Evi, Culfa rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin binası və Təhsil Şöbəsinin ətrafının, Şahtaxtı kənd Şərq hamamına gedən avtomobil yolunun, Babək rayonundakı bazar binası ətrafının, Dövlət Baytarlıq Xidməti binası ətrafının asfaltlanması, Naxçıvan şəhərində yerləşən "N" hərbi hissədə işlər davam etdirilib.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**




# Sovetlər Birliyinin dağıldığı ilk yer: Naxçıvan

## *Erməni terrorçu dəstələri Naxçıvana qarşı*

Sovet İttifaqının tarixində ilk dəfə 31 il əvvəl Naxçıvan Muxtar Respublikası SSRİ-nin tərkibindən çıxdığını bəyan etdi.

1990-cı ilin yanvar ayında erməni terroru daha da şiddətlənmişdi. Azərbaycana qarşı erməni təcavüzünə Sovet İttifaqı rəhbərliyi açıq-aşkar şərait yaratmışdı. Buna baxmayaraq, xalqımızın istiqlaliyyət uğrunda mübarizəsi getdikcə güclənməkdə idi.

Qanlı Bakı qırğınına hazırlaşan imperiya ordusu ölkəmizin digər bölgələrində, o cümlədən Naxçıvanda da kütləvi qırğın planı hazırlamaqda idi.

1990-cı ilin yanvar ayından başlayaraq erməni terror dəstələri Naxçıvanın yaşayış məntəqələrinə ardarda hücumlar həyata keçirirdi. Belə bir vəziyyətdə Naxçıvandakı rəhbərlik Moskvadan Konstitusiyadakı öhdəliklərə əməl edilərək muxtar respublikanın əhalisinin təhlükəsizliyinin təmin olunmasını tələb edirdi. SSRİ rəhbərliyi, nəinki bu hücumun qarşısını alır, əksinə, seperatçı erməni birləşmələrinə Naxçıvana hücum etmək üçün silah və hərbi texnika köməkliyi göstərirdi. Hətta basqınlarda imperiya ordusunun hərbi qulluqçuları da iştirak edirdilər. Məhz Naxçıvanın Kərki kəndi SSRİ daxili qoşunlarının birbaşa iştirakı ilə işğal olunmuşdur.






Ermənilərin məqsədi mərkəzi imperiya rəhbərliyinin dəstəyi ilə Naxçıvan əhalisi arasında qorxu yaradaraq, qısa zamanda buranın boşaldılmasına nail olmaq idi. Sədərək istiqamətində döyüşlərin getdikcə intensivləşməsi qardaş Türkiyə ilə dar bir zolaqda yerləşən sərhəd strateji ərazisinin işğal edilməsinə çalışırdılar. Bununla da Naxçıvanda əhalinin vəziyyətini kritik hala gətirərək bölgədə Azərbaycanın varlığına son qoyula bilərdi.

31 il əvvəl baş verən kritik şəraitdə Naxçıvandakı əhali özünü itirməyərək, birlik nümayiş etdirib həm erməni hücumlarına qarşı səfərbər oldular, həm də bu günümüz üçün mühüm tarixi əhəmiyyət daşıyan siyasi qərarın qəbul olunmasına nail oldular.

Minlərlə naxçıvanlı MSSR-in Ali Sovetinin fövqəladə sessiyasının keçirilməsi tələbi ilə mitinqlərə başladı.

Naxçıvan Parlamenti 19 yanvar 1990-cı il tarixdə axşam gec saatlarda Azərbaycanın və Naxçıvanın suverenliyi, ərazi bütövlüyü müdafiə edilmədiyinə görə SSRİ Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq Naxçıvanı müstəqil respublika elan etdi. Naxçıvan Ali Sovetinin SSRİ-nin tərkibindən çıxdığına dair qərarda daha sonra aşağıdakılar qeyd olunur:

1. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir.

2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin.

3. Yaranmış vəziyyətlə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun.

Sovet İttifaqının 70 illik tarixində ilk dəfə olaraq muxtar ərazinin imperiyanın tərkibindən çıxması kimi tarixə düşən bu hadisə dünyada böyük rezonans yaratdı. Bu siyasi qərarın qəbul olunması o dövr üçün cəsarət tələb edən riskli məsələ idi.

Naxçıvan Parlamentinin qətiyyətli addım ataraq muxtar respublikanın SSRİ-nin tərkibindən çıxması ilə bağlı verdiyi qərar imperiya rəhbərliyinin Bakıda törətdiyi qırğını Naxçıvanda da törətməkdən çəkindirdi. Daha sonrakı proseslər də muxtar respublikanın müdafiəsinin təşkili və təhlükəsizlik məsələlərində ciddi zəmin yaratdı. Azərbaycanın müstəqillik uğrunda gedən mübarizəsində Naxçıvan ön cərgədə addımladı.



Naxçıvan Parlamentinin 1990-cı il 19 yanvar tarixli qərarı Sovet İttifaqında ilk addım olaraq imperiyaya qarşı mübarizədə Azərbaycan xalqının dünyada mübariz xalq kimi tanınmasında mühüm rol oynadı.

**Samir ADIGÖZƏLLİ**
*İctimai Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) sədri*
*www.republic-underground.com*

# İlin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi Namiq Paşayev bildirib ki, 2020-ci ildə muxtar respublikanın elektrik şəbəkələrinə 454 085 532 kilovat-saat elektrik enerjisi daxil olub, bunun 29 671 000 kilovat-saatı İran İslam Respublikasından alınıb, 64 961 024 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 42 914 900 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 41 069 400 kilovat-saatı "Arpaçay-1" Su Elektrik Stansiyasında, 1 050 000 kilovat-saatı "Arpaçay-2" Su Elektrik Stansiyasında, 226 060 000 kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 40 943 976 kilovat-saatı Naxçıvan Günəş Elektrik Stansiyasında, 339 632 kilovat saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 7 075 600 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. Ötən il ərzində İran İslam Respublikasına 29 705 000 kilovat-saat elektrik enerjisi verilib.

Qeyd olunub ki, hesabat ili ərzində elektrik stansiyalarında 424 414 532 kilovat-saat elektrik enerjisi istehsal edilib sistemə ötürülüb ki, bu enerjinin 157 070 924 kilovat-saatı və ya 37 faizi su elektrik stansiyalarında, 226 399 632 kilovat-saatı və ya 53,35 faizi istilik elektrik stansiyalarında, 40 943 976 kilovat-saatı və ya 9,65 faizi Günəş Elektrik Stansiyasında istehsal edilib. 2020-ci ildə alternativ və bərpa olunan enerji mənbələrində 198 014 900 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 46,7 faizini təşkil edir.

Hazırda Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikinti işləri davam etdirilir, gücü 15,6 meqavat olacaq Tivi Su Elektrik Stansiyasının, Şərur rayonunda ilkin mərhələdə layihə gücü 5 meqavat olacaq yeni Günəş Elektrik Stansiyasının tikinti işlərinə başlanılıb. Culfa rayonu ərazisində isə 1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikinti-quraşdırma işləri davam etdirilir.

Vurğulanıb ki, hesabat dövründə 1323 sayda əhali, 772 sayda qeyri-əhali qrupuna və 477 smartkarttipli yeni sayğaclar quraşdırılıb, 243 sayğaca xitam verilib, 132 zədəli sayğacın işi bərpa olunub.

Sonra çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi Müslüm Cabbarzadə açıb. Bildirilib ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılıb, il ərzində 7157 daşınmaz əmlak obyekti plana alınıb.

Qeyd olunub ki, qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq Şərur rayonunun 6, Kəngərli rayonunun isə 3 bələdiyyəsinin torpaqlarının qida maddələri ilə təmin olunmasına dair yeni kartoqramları hazırlanıb. Şərur rayonunun 5, Babək rayonunun 2, Ordubad rayonunun 3, Şahbuz rayonunun 3, Kəngərli rayonunun isə 4 bələdiyyəsi üzrə işçi planlar hazırlanaraq torpaq analizlərinin aparılması üçün təhvil verilib. Həmçinin Naxçıvan şəhəri üzrə 35 nəqliyyat infrastrukturu obyektində 4000-ə yaxın daşınmaz əmlak obyektinin ünvanı dəqiqləşdirilib. İl ərzində yeni yaranmış 295 daşınmaz əmlak obyektinə ünvan verilib. Şərur rayonu üzrə 23 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri tərtib edilərək aidiyyəti üzrə təqdim olunub. Şahbuz və Sədərək rayonlarının bütün bələdiyyələri üzrə xəritələrin və yerquruluşu sənədlərinin hazırlanması başa çatdırılıb.

Vurğulanıb ki, 2020-ci il ərzində muxtar respublika üzrə 6223 daşınmaz əmlak obyekti qeydiyyata alınıb ki, bu da 2019-cu ilin göstəricisindən 1,8 faiz çoxdur. Ümumilikdə, il ərzində daşınmaz əmlakla bağlı əməliyyatların aparılması üçün qəbul edilmiş 14583 ərizə icra olunub.

Xidmət rəisi bildirib ki, Naxçıvan Dövlət Universitetinin hamiliyə verilmiş ixtisaslarında təhsil alan tələbələrə onlayn və praktik təlim-məşğələlər keçirilib. Yay tətili müddətində bir tələbə 3 aylıq əmək müqaviləsi bağlanılmaqla işlə təmin edilib.

Sonra çıxışlar dinlənilib.

* * *

2020-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasda Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin direktoru Bəxtiyar Məmmədov çıxış edərək bildirib ki, 2020-ci ildə muxtar respublikada sığorta fəaliyyəti üçün ən əhəmiyyətli addım sığorta qurumunun hüquqi-təşkilati formasının dəyişdirilməsi olub. Belə ki, sığorta işi sahəsində şəffaflığın artırılması və sığorta fəaliyyətinin təkmilləşdirilməsi, eyni zamanda iqtisadiyyatın tərkib hissəsi olan sığorta sisteminin imkanlarından geniş və səmərəli istifadə edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ləğv edilərək onun əsasında Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti publik hüquqi şəxsi yaradılıb.



Ötən dövrdə görülmüş işləri təhlil edən direktor bildirib ki, xidmət tərəfindən aparılan sığorta fəaliyyəti üzrə sığorta haqlarının yığımında ötən ilin müvafiq dövrü ilə müqayisədə həyat sığortası sahəsində 11 faiz artım olub. Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası ötən dövrdə xidmət tərəfindən aparılmadığından qeyri-həyat sığortası sahəsində isə 10,63 faiz azalma qeydə alınıb. Növlər üzrə baxdıqda icbari sığortalarda eyni səbəbdən 9,85 faiz azalma olub, könüllü sığortalar üzrə isə 13,71 faiz artım olub. Ümumi sığorta yığımlarında avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası istisna edilməklə 22,71 faiz artım olub.

Aqrar sığortanın əhəmiyyətindən də danışan direktor bildirib ki, verilmiş tapşırıqlara əsasən kənd təsərrüfatı bitkilərinin, meyvə-tərəvəz sahələrinin sığortasının aparılması təşkil olunub.

Məruzə ətrafında çıxışlar dinlənilib.

2020-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açıb. Bildirib ki, hesabat dövründə 2222 vaqon 133 min 19 ton yük daşınıb və daşımadan cəmiyyətin hesabına 270 min 40 manat vəsait daxil olub. Həmin yüklərin 198 vaqon 10 min 925 tonu Naxçıvan Qarnizonu Mənzil İstismar Xidmətinin, 19 vaqon 1140 tonu "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, 2005 vaqon 120 min 954 tonu isə "Gəmiqaya" Yol, Su, Enerji Şirkətinin və Texniki İnzibati Binaların Təmir Tikinti İdarəsinin ünvanlarına çatdırılıb. Bəhs olunan dövrdə yük daşımasının həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 151 min 318 ton, daxil olan vəsait 183 min 168 manat az olub. 2020-ci ilin 12 ayında yük dövriyyəsinin həcmi faktiki olaraq 10 milyon 931 min ton/kilometr, sərnişin dövriyyəsinin həcmi isə 3 milyon 657 min sərnişin kilometr təşkil edib.



Qeyd edilib ki, "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrası ilə əlaqədar 2020-ci ilin 12 ayında dəmir yolunun ayrı-ayrı sahələrində sağlamlaşdırma işləri aparılıb, qatarların hərəkətinin təhlükəsizliyi təmin edilib və bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Culfa Lokomotiv Deposunda lokomotivlər 44 dəfə texniki baxışdan keçirilib, onlarda 26 dəfə cari təmir işləri aparılıb. Culfa İstismar Vaqon Deposunda 78 müxtəliftipli yük və sərnişin vaqonu cari və depo təmirləri edilib. 1 elektrovozun cərəyan qəbuledicisi, 1 elektrovozun motor-kompressoru, 8 elektrovozun təkər cütü dartı motoru ilə birlikdə dəyişdirilərək nasazlıqlar aradan qaldırılıb. Bakı şəhərindən lokomotivlər üçün 150 ədəd daraqlı əyləc qəlibi, 1 motor ventilyatoru, vaqonlar üçün 170 çuqun əyləc qəlibi, 32 ox yastığı alınıb gətirilib. Əlavə olaraq təmir üçün Bakı Lokomotiv Deposuna göndərilən 16 ədəd elektrovoz təkər cütü təmir olunaraq geri qaytarılıb.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**



## Hərbi qulluqçularımız Türkiyədə keçiriləcək təlimdə iştirak edəcəklər

Qardaş Türkiyə Respublikasının Qars şəhərində keçiriləcək "Qış təlimi-2021"də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da iştirak edəcək. Təlimə cəlb edilmiş şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibətilə mərasim keçirilib.

Yolasalma mərasimində Dövlət Himni səsləndirildikdən sonra çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Fazil Ağalarov günü-gündən inkişaf edən Azərbaycan-Türkiyə hərbi-texniki əməkdaşlığından, hər il Naxçıvan və Qars şəhərlərində keçirilən birgə hərbi təlimlərin əhəmiyyətindən, müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı şanlı Qələbədən danışaraq "Qış təlimi-2021"də iştirak edəcək bölmələrə uğurlar arzulayıb.

Çıxışlardan sonra təlimə cəlb edilmiş bölmələr Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə doğru yola düşüblər. Araz çayı üzərindəki "Ümid" körpüsündən keçən bölmələrimiz Qars şəhəri istiqamətində hərəkəti davam etdiriblər.



**Nəriman NƏCƏFOV**

## Ümumi orta məktəbdən tam orta məktəbə

### *Buna təhsilə göstərilən qayğı sayəsində nail olunub*



*Ölkəmizdə təhsilin inkişafına böyük diqqət göstərilir. Azərbaycan müstəqillik qazandıqdan sonra digər sahələrlə yanaşı, təhsil də sürətlə inkişaf etməyə başladı, bu sahədə yeni uğurlar qazanıldı. Söz yox ki, bu uğurlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdan dahi şəxsiyyət yeni təhsil islahatının əsasını qoydu. Ümummilli liderimiz Heydər Əliyev demişdir:* ***"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".*** *Ötən əsrin 90-cı illərində Azərbaycan təhsili ulu öndərin bu müddəalarına əsaslanan islahatlar nəticəsində əsl inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərin yolunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev də təhsilin inkişafına böyük qayğı ilə yanaşır, yeni məktəb binalarının tikilməsi, yeni tədris korpuslarının istifadəyə verilməsi gələcəyimiz olan gənclərin daha yüksək səviyyədə təhsil almalarına zəmin yaradır.*

Ölkəmizin bütün bölgələrini əhatə edən təhsil islahatları muxtar respublikamızda da uğurla həyata keçirilib. Belə ki, 1995-ci ildən etibarən bu sahədə böyük nailiyyətlər əldə olunub. Muxtar respublikamızın ən ucqar yerlərində, vaxtilə əlçatmaz hesab edilən dağ kəndlərində belə, məktəb binaları yenidən qurulur, onların maddi-texniki bazası möhkəmləndirilir. Son 20 ildən artıq bir dövrdə muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri içərisində yeni məktəb binalarının tikilməsi və onların yenidən qurulması mühüm əhəmiyyət kəsb edir. Təkcə bir faktı qeyd edək ki, bu günədək 200-dən çox təhsil müəssisəsi müasir tələblərə uyğun tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlar müasir avadanlıqlarla təmin edilib. Həmin təhsil müəssisələrində yaradılan hərtərəfli şərait – işıqlı sinif otaqları, müasir avadanlıqla təchiz edilmiş fənn laboratoriyaları, kompüterlər və elektron lövhələr quraşdırılmış sinif otaqları, zəngin fonda malik kitabxanalar tədrisin daha yüksək səviyyədə həyata keçirilməsinə zəmin yaratmışdır. Bütün bunlar təhsilin keyfiyyətini daha da yüksəldərək, bacarıqlı, savadlı, hərtərəfli dünyagörüşünə malik gənclərin yetişməsinə stimul verir. Blokada şəraitində yaşayan və buna baxmayaraq, sürətlə inkişaf edən muxtar respublikamızın ümumtəhsil məktəblərinin göstəriciləri ölkə miqyasında seçilməkdə, ali məktəblərə qəbulun səviyyəsi ilbəil yüksəlməkdədir. Belə ki, ötən tədris ilində qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 2381-i ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olanlardan 1108-i ixtisas seçimi zamanı muxtar respublikanın ali təhsil müəssisələrinə üstünlük vermişdir. Qəbul imtahanlarının nəticələrinə əsasən 275 nəfər 500-dən yuxarı bal toplamış, onlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür.

Yenidən qurularaq 2020-ci ildə istifadəyə verilən məktəblərdən biri də Şərur rayonunun Qarabürc kənd ümumi məktəbidir. Məktəbdə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəbin açılışında demişdir: ***"Pedaqoji kollektivin formalaşması, yaradılan şərait imkan verir ki, növbəti tədris ilində Qarabürc kənd ümumi orta məktəbi tam orta məktəbə çevrilsin. Bunun üçün lazımi tədbirlər görüləcək. Müəllimlərin üzərinə düşən vəzifə isə yaradılanlardan istifadə etməklə tədrisin səviyyəsini yüksəltmək, vətənpərvər gənclərin yetişdirilməsinə diqqəti artırmaqdır".***

Qarşıya qoyulan tapşırığa əsasən "Şərur rayonunun Qarabürc kənd orta məktəbinin tam orta məktəbə çevrilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 7 yanvar 2021-ci il tarixli Qərarı qəbul edilmişdir. Adıçəkilən qərarla daha bir kənd ümumi məktəbi tam orta məktəbə çevrilmişdir. Bu təhsil müəssisəsinin ümumi məktəbdən tam orta məktəbə çevrilməsi isə muxtar respublikada təhsilin inkişafına göstərilən növbəti qayğıdır. Məktəbin direktoru Zülfüqar Məmmədovla söhbət zamanı o bildirdi ki, 120 şagird yerlik 3 mərtəbədən ibarət olan təhsil ocağında fizika, kimya və biologiya laboratoriyaları, şahmat kabinəsi, kompüter, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı ötən ilin noyabr ayında müəllim və şagirdlərin istifadəsinə verilib. Məktəbdə ilk dəfə olaraq yaradılan STEAM kabinəsində elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmış, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları qoyulmuşdur. Həmin kabinədə şagirdlərin əl işləri nümayiş etdirilir. Ali Məclis Sədrinin tapşırığına əsasən Qarabürc kənd ümumi məktəbinin tam orta məktəbə çevrilməsi kollektivimizin sevincini birə-beş artırıb. Biz də çalışacağıq ki, yaradılan şəraitə, göstərilən qayğıya əməli işimizlə cavab verək.

Qarabürc tam orta məktəbinin bir neçə müəllimi də göstərilən qayğıdan ağızdolusu danışdılar:

Mustafa Qafarov – Azərbaycan dili və ədəbiyyatı müəllimi: – Muxtar diyarımızda təhsilimizə göstərilən qayğı, təhsil işçilərinə verilən dəyər ən yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması bu sahəyə göstərilən qayğının əyani ifadəsidir. Bu, biz müəllimlərin məsuliyyətini daha da artırıb. Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs tərəfindən müəllimlərin işə qəbulu ilə əlaqədar imtahanlar həyata keçirilir. Bu isə təhsil müəssisələrinin müəllim kadrları ilə təmin edilməsində əvvəllər yol verilmiş nöqsanların aradan qaldırılmasına, pedaqoji kadr kimi fəaliyyətin daha şəffaf şəkildə həyata keçirilməsinə stimul olmuşdur. Yeni texnologiya və əyani vəsaitlərlə təmin edilən müasir təhsil ocaqlarımız şagirdlərin elmin sirlərinə daha dərindən yiyələnmələrinə, onların hərtərəfli bilik əldə etmələrinə imkan verir. Biz təhsil işçiləri də yaradılan şərait, göstərilən qayğı müqabilində daha yaxşı çalışmalı, gələcəyimiz üçün savadlı kadrlarının yetişdirilməsində əlimizdən gələni əsirgəməməliyik.

Yaqut İbrahimova – ibtidai sinif müəllimi: – 1990-cı ildə blokada vəziyyətinə salınmış Naxçıvanda təhsilin vəziyyəti ürəkaçan deyildi. Sovet dövrünün ərməğanları olan məktəb binalarında yanacaq, enerji yoxluğu acınacaqlı vəziyyət yaratmışdı. Şaxtalı qış günlərində məhdud yanacaq hesabına neft sobası ilə qızdırılan sinif otaqlarında oturmaq, sözün əsl mənasında, dəhşətli idi. Məktəblərin dam örtükləri yararsız olduğu üçün yağış yağan zaman sinif otaqlarını suyun altına qoyulan qablar "bəzəyirdi". Ötən illərlə bugünkü dövr müqayisəolunmaz səviyyədədir. İndi muxtar respublikamızın ən ucqar kəndlərində, rayon mərkəzlərində, şəhərlərimizdə müasir məktəblər göz oxşayır ki, həmin təhsil ocaqlarından biri də Qarabürc tam orta məktəbidir. Qürur hissi ilə deyə bilərik ki, bu gün, nəinki həmin məktəb avtomobil yolumuz da yenidən qurulub, kənd və xidmət mərkəzləri istifadəyə verilib.

Kəndimizin müasirləşən yaşayış məntəqələri sırasına qoşulması, salınan rahat yol, müəllim və şagirdlərin istifadəsinə verilən müasir məktəb binası bizi daha da yaxşı işləməyə ruhlandırır, yüksək təhsilli, vətənpərvər gənclər yetişdirməyə çalışırıq. Çünki bu günün hərtərəfli yetişdirilmiş gənci müstəqil dövlətimizin gələcəyi, ölkəmizi inkişaf etdirənlər olacaqlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır".***

**Nuray ƏSGƏROVA**

*AMEA Naxçıvan Bölməsində Azərbaycan elminin görkəmli nümayəndəsi, AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi İsmayıl Hacıyevin 70 illik yubileyi münasibətilə "İsmayıl Hacıyev alim və ictimai xadim kimi" mövzusunda tədbir keçirilib.*

## İsmayıl Hacıyev alim və ictimai xadim kimi



Tədbiri giriş sözü ilə açan AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli akademik İsmayıl Hacıyevin həyat yolu və zəngin elmi fəaliyyətindən bəhs edib. Bildirib ki, İsmayıl Hacıyev 1951-ci il yanvarın 21-də Culfa rayonunun Xanəgah kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Orta təhsilini uğurla başa vurmuş, 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. O, 1974-1977-ci illərdə Xanağa və Xoşkeşin kənd məktəblərində müəllim, 1978-ci ildən indiki Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərmişdir. Burada müəllim, baş müəllim, dosent, dekan müavini, dekan, elmi işlər üzrə prorektor və tədris işləri üzrə prorektor vəzifələrini uğurla icra etmişdir. 1992-ci ildə namizədlik, 1999-cu ildə isə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli "Akademik İsmayıl Hacıyevin ictimai fəaliyyəti" mövzusunda məruzə edib. Vurğulanıb ki, tanınmış ziyalı, təcrübəli tədqiqatçı alim İsmayıl Hacıyev ölkə və muxtar respublika mühitində ictimai-siyasi baxımdan fəallığı ilə seçilən şəxsiyyətdir. O, aydın siyasi mövqeyi olan, qətiyyətli, dönməz əqidəli ictimai xadimdir. Dövlətimizin elm siyasətində özünəməxsus yer tutan alim AMEA Naxçıvan Bölməsinə rəhbərlik etdiyi 18 il ərzində həm nümunəvi elmi-təşkilati bacarıq nümayiş etdirmiş, həm də Azərbaycan elmi-ictimai mühitinin tanınmış siması kimi bu siyasətin həyata keçirilməsinə özünün real və sanballı töhfəsini vermişdir. Yüksək əxlaqi keyfiyyətləri, sadəliyi, təvazökarlığı, məsuliyyətliliyi, əsl vətənpərvər mövqeyi ilə seçilən bu Azərbaycan ziyalısı ömrünü Azərbaycan dövlətçiliyinin, Naxçıvanşünaslığın tədqiqinə həsr etmiş və bu gün də bu ali missiyanı uğurla davam etdirməkdədir.

Daha sonra Naxçıvan Dövlət Universitetinin əməkdaşı, tarix elmləri doktoru Sevinc Abbasovanın, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin və həmin institutun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin məruzələri dinlənilib.

Bildirilib ki, İsmayıl Hacıyev Naxçıvanşünaslığın tədqiqi sahəsində xüsusi yer tutan alimlərdəndir. Ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti, Heydər Əliyev siyasəti və Azərbaycan tarixi məsələləri, Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvanın yeri və digər məsələlər alimin elmi fəaliyyətinin əsas istiqamətlərini təşkil edir.

Sonda yubilyar çıxış edərək əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Universitetlərarası onlayn müqavilə imzalanıb

Naxçıvan Dövlət və Qars Qafqaz universitetləri arasında onlayn görüş keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Rektor tarixi ədalətin bərpa olunmasında Türkiyənin Azərbaycana verdiyi mənəvi, siyasi dəstəyi xüsusi olaraq qeyd edib. Çıxışda Türkiyə universitetləri ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində yeni layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb.





Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapı düşmən üzərində qazandığımız qələbəni bütün Türk dünyasının zəfəri adlandırıb və bu münasibətlə hər kəsi təbrik edib. Qeyd edilib ki, Atatürkün ***"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir"*** sözləri və Azərbaycanın ulu öndəri Heydər Əliyevin ***"Biz bir millət, iki dövlətik"*** fikirləri bizim dostluğumuzun və qardaşlığımızın mənasını təşkil edir. Daha sonra layihə təklifləri müzakirə olunub.

Görüşdə bütün elm, təhsil sahələrində ortaq layihələr həyata keçirmək, konfranslar, simpoziumlar təşkil etmək, ortaq elmi araşdırmalar aparmaq və nəşrlər hazırlamaq, elmi toplantılar təşkil etmək, tələbə-müəllim mübadiləsi həyata keçirmək, müxtəlif idman növləri üzrə universitetlərarası idman yarışları keçirmək məsələləri müzakirə edilib.

Sonda hər iki universitet arasında onlayn şəkildə qarşılıqlı müqavilə imzalanıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ata və oğulun barıt qoxulu xatirələri...

*(Oçerk)*

*Uzaq sahillərdə...*

"Bütün sərnişinlərin nəzərinə! Bakıdan yol alan qatar günorta vaxtı ilə saat 3-də yola düşəcək". Qatara tələsənlər bu dəfə istirahət üçün yox, Vətəni qorumaq üçün, İkinci Dünya müharibəsinin iştirakçısı olmaq üçün gedirlər. Qatarın yola düşməsi elan olunandan az sonra fit səsi, bir-birinə qoşulan vaqonların ardıcıllıqla taqqıltısı eşidildi. Əksəriyyəti könüllülərdən ibarət olan əsgərlərin içərisində naxçıvanlı Əhəd Əliyev də vardı. O hamıdan cəld tərpənib qapının yanındaca əyləşmişdi. Bu vətənpərvər gənc Vətən üçün savaşıb ölməyi şərəfli bir yol bilirdi. Cəsurluq və qorxmazlıq onun üzündən-gözündən yağırdı.



...Vaqonlar ağır-ağır yerindən tərpəndi. Çox keçmədi ki, səs-küylü dəmir yolu vağzalı arxada qaldı. Qarşıda isə bir neçə günlük yol var. Şəhərdən uzaqlaşandan sonra hiss olunur ki, qatarın sürəti yavaş-yavaş artır. Yollar bir-birini əvəz edir. Dağlar görünür, düzlər itirdi. Böyrü bir az açıq qalmış pəncərədən kupelərə buz kimi soyuq hava dolurdu. İçəri yaman soyumuşdu. Lakin kimsə soyuqdan donsa da belə, çətin ki, dilə gətirərdi, çünki onu elə yerindəcə lağa qoyub gülərdilər. Gecənin qaranlığından buz kimi qanı donduran soyuğun öhdəsindən ancaq yatmaqla gəlmək olardı. Başqa cür mümkün də deyildi.

Bir tikə çörək, bir stəkan su ilə günlərini başa vuran əsgərlər bu gün uzaq sahillərə çatmalı idilər. Gecəboyu relslər üstündə şütüyən elektrovoz ardınca düzülmüş vaqonları dartaraq həyəcan siqnalı verir. Qatarın fit səsləri eşidilir. Əsgərlərimiz Çexiya bölgəsinə çatırlar.

*Naxçıvanlı əsgərin xilaskarı, sevgi dastanının qəhrəmanı çex qızı...*

Müharibənin qızğın vaxtları idi. Neçə gün idi ki, şiddətli döyüşlər gedirdi. Vladivostokdan Ustiyə qədər gedən döyüşlərdə itkilərin də, yaralıların da sayı çoxluq təşkil edirdi. Xəstəxana başdan-ayağa yaralılarla dolmuşdu. Bu yaralıların içində Əhəd Əliyev də vardı. Huşu özündə olmayan, bərk yaralanan Əhəd minaya düşmüş və iki gözünü də itirmişdi. Tibb bacıları nə qədər çalışsalar da onu yedirdə bilmirdilər. Nə ağ dinirdi, nə qara. Ta ki o gəlincəyə qədər...

Xəstəxanaya başqa yaralı gətirən Erika öz qonşusu ilə xəstəxananın girişində rastlaşır. Əslən çex olan Erika yaralılara qarşı çox həssas yanaşır, hallarına acıyırdı. Qonşu qızı tələm-tələsik Əhəd haqqında danışdı: "Erika, ağır yaralımız çoxdur. Onlardan biri ölüm-qalım savaşı verir. İki gündür ki, buradadır, nə yeyir, nə içir. İki gözünü də itirib. Çox qanaxması var". 18 yaşlı Erika çox dilli-başlı, həm də işinin öhdəsindən çox səriştəli gəlməyi bacaran tibb bacısı idi. Qonşu qızından həmin gənci göstərməyini xahiş etdi. Erika əlində bir az kakao, bir tikə çörək Əhədin yatdığı palataya yaxınlaşdı. Rus dilində ona müraciət edərək yeməsə ağırlaşacağı, hətta öləcəyi barədə söyləyəndən sonra Əhədin ürəyində bir qığılcım yarandı. Erikanın səsi ona o qədər doğma, o qədər əziz gəldi ki, könül gözləri ilə ona heyran qaldı. Və gətirdiyi yeməyi yedirtməyini xahiş etdi. Açığı Erika da ona biganə qalmadı. Hər gün xəstəxanaya baş çəkir, birlikdə bağa çıxır, söhbət edir, vaxt keçirirdilər. Hətta bu tanışlıq onun gözlərinin yoxluğunu da unutdurmuşdu. Onu ruhən xilas edən qadına bir könüldən, min könülə aşiq olmuşdu. Erika əsir düşmüş azərbaycanlı əsgər Əhəd Əliyevi lazaretindən qaçıraraq evində gizlədir, hər iki gözünü itirən Əhədin qayğısına qalır, onun müalicəsi ilə məşğul olur. Zaman elə gətirir ki, Əhəd öz doğma vətəninə qayıtmalı olur. Erika ilə sağollaşıb səhər qatara minəcəkdi ki, Erika onu da aparmasını xahiş edir. Açığı, Əhəd təklif etməyə çəkinmişdi ki, alman qızı müsəlman ölkəsində gözləri görməyən adamın yanında yaşamaq istəyərdimi? Erika ona olan saf sevgisini belə göstərdi. Heç bir təmənna güdmədən, umadan. Əhədlə birlikdə Naxçıvana gəldilər, xoşbəxt yaşadılar uzun illər. Əhəd ömrünün sonuna kimi görmədiyi xanımı Erikanı çox sevdi...

*Həyat mərtəbəsinin sevgi pilləsi...*

Fərqli sevgi nəsibi olan cütlüyün üç övladı dünyaya gəldi. Səməd, Səyyad, Fərhad. Oğlanları arasında Səyyad Əliyev ən fədakarı və ən qorxmazı idi. Döyüş ruhu onun qanında, canında vardı. Atasının bütün kişi xüsusiyyətləri onda da mövcud idi. Hər kəs onu dəli-dolu tanıyırdı. Söz ağzından çıxdısa, dediyini mütləq etməli idi, lap sonunda itirsə də. Bir də sözünə çox sadiq adam idi. Ailəcanlı, mehriban, səmimi, qayğıkeş olan Əhəd kişi müharibə hekayələrindən danışanda Səyyadın ürəyində görünməyən bir qürur yaranar, belə atanın oğlu olduğu üçün lovğalanardı.

Zaman keçdi, illər ötdü. 1990-cı illərin müharibə yükü, itki dərdi, torpaq işğalları, Sovetlər Birliyinin ermənilərə dəstək olması hər bir azərbaycanlı kimi Səyyadı da üzürdü. Səyyad ailəli idi, bir oğlunun 17, o birinin isə 4 yaşı vardı. Bir pis xəbər eşidəndə hirs bağırsağını kəsə-kəsə iki otaq arasında sağa-sola var-gəl edirdi. O, bərk əsəbiləşəndə yoldaşı Lətifə də balaca Elvini qucağına alar, sakitcə o biri otağa keçərdi. Səyyad Vətən övladlarının başına gətirilən 20 Yanvar faciəsi kimi cinayətlərə sakit, biganə qala bilmirdi. Nəsə hey çıxış yolu axtarır.

Yay ayları idi. Könüllü dəstələrə gizli yazılan Səyyadı Sədərək uğrunda gedən döyüşlərdə iştirak etməyə çağırdılar. Yoldaşı Lətifə nə qədər "getmə" deyə israr etsə də, xeyri olmadı ki, olmadı. Axı Vətən darda idi və Vətənə sığınan on minlərlə ailənin qorunması idi əsl mərdlik, ərənlik. Vətənin dadına yetən Səyyad böyük oğluna da hərbi forma geyindirib özü ilə bərabər Sədərəyə apardı.

*Sədərəyin silahsız silahdaşları...*

Naxçıvanda məhəllə-məhəllə könüllülərdən ibarət dayaq dəstələri təşkil edilmişdi. Çoxu da silahsız. Üç avtobusdan ibarət döyüşçülər sərhəd bölgəsinə yüksək inamla irəliləyirdi. Səyyad zəhmli üzünü turşudur, qəzəbli baxışlarla yol kənarlarındakı dağıntılara baxaraq qaşlarını çatırdı. Vətənin imdadına çatmaq üçün çox tələsirdi. Tez çataraq döyüşmək, Vətən övladlarının intiqamını almaq hissi ilə alışıb-yanırdı. Bəlkə, onda onun ürəyi sərinləyərdi. Oğluna işarə edərək, – o uşaq kimdir, – deyə soruşanlara isə fəxrlə igid atanın mərd oğludur, deyirdi. Evdəki xalçadan asılan "Kalaşnikov" indi onun sinəsindən asılmışdı. Düşməni məhv edəcəyi saniyələri güdürdü. Sədərəyə yaxınlaşdıqca top-tüfəng tozanaqlarından dumanlanan hava güllə səsləri ilə vahiməli mənzərədən xəbər verirdi. Heç eşitmədiyimiz, duymadığımız silah səsləri, top atəşləri göylərdə əl-ələ verib can alırdı, qan tökürdü. Adamın heç inanmağı gəlmirdi, vaxtilə, el-obamızda özünə yer eləyən, çörək verdiyimiz "qonşular" yedikləri çörəyə dönük çıxmışdılar. Gecədən ermənilər hücuma keçmiş, dayanmadan top atəşi yağdırmışdılar Sədərəyə.

Çatan kimi sürünə-sürünə döyüşçülərin yanına (Çaxır Zavodunda postlarını qurmuşdular) getdilər. Döyüşçülərdən Fəxrəddin Qurbanov Səyyadı görər-görməz qeyri-ixtiyari "şükür" deyib onu salamladı. Fəxrəddinlə eyni məhəllənin uşağı olmuşdu Səyyad. Onun mahir ovçu olması heç kimə sirr deyildi. Hətta buna həsəd aparırdılar. Bu səbəbdən idi ki, könüllü yazılar-yazılmaz onun adını ön cəbhə döyüşçüsü kimi qeyd etmişdilər. Həmin ovçu Sədərək müharibəsi tarixində düşmənlərə gözdağı verən nişançı kimi tarixə yazılacaqdı.

Təəssüf ki, silah-sursat azlığından əziyyət çəkən döyüşçülərimiz evdən gətirdikləri ev əşyaları, kəsici alətlər, ov tüfəngləri ilə müdafiə olunurdular.

*Ovu bərəsində vurarlar...*

Uzun müddət idi ki, döyüş və texniki biliklərinə görə yoldaşlarından çox seçilən Səyyadı fərqli edən məqamlardan biri də "Kalaşnikov"dan snayper kimi istifadə etməsi idi. Hansısa bir yüksəklikdə bir tərpəniş sezdimi, – dəqiq nişanla, bir atışla düşməni yerindəcə məhv edirdi. Vurandan sonra da döyüş yoldaşlarına müraciət edərək "Ovu bərəsində vurarlar", – deyib zövq alırdı. Bir də gündə neçə dəfə desəydilər Koroğlu bulağından Ucubizə qədər sürətlə gedər, nəzarət edib gələrdi. 4 dəfə Ermənistan ərazisinə kəşfiyyata keçib onların hərbi sirlərini öyrənmişdi. Axırıncı dəfə isə Surenavan kəndində olmuş, hələ bir stəkan çay içib, bir erməni əsgərinin də papağını götürüb özü ilə gətirmişdi. Döyüş yoldaşlarına kişinin papağı başında olar. Bunlar niyə kişidir ki, – deyib arada döyüşçülərin kefini də açardı. Onun varlığı döyüş yoldaşlarına ürək-dirək verərdi. Diqqətcillik, məsuliyyət onun peşəsi ilə əlaqədar idi. Bir gün zavoddan kanala keçmək istəyərkən suda gizlənən erməniləri görüb işarə edir ki, sakitcə suya əyilin. Özü isə ayaqüstə suya dəqiq nişanlar atdıqdan bir neçə dəqiqə sonra üç erməni leşi suyun üzünə çıxır. Artıq ermənilər də onu tanıyır və aradan götürməyə çalışırdılar. Başına pul da qoymuşdular. Bəzi mənbələr göstərir ki, həmin ərəfədə ermənilərin idman ustası Anjelina və bir çox tanınmış snayperçiləri Sədərəklə sərhəddə yerləşdirmişdi.



*Çöl göyərçininin sülh məramı...*

Səyyad "Çöl göyərçini" ləqəbini döyüşlərdə öz döyüşçü yoldaşları tərəfindən almışdı. Bu, bütün vəziyyətlərdən özünü çıxarmağı bacardığı, ovlamaq qabiliyyəti olduğu adama deyilir. Həqiqətən də, onun bu döyüş bilgiləri Allah vergisi idi. 18 nəfərlə dağda mühasirəyə düşərkən onun uzaqgörənliyi və dəqiq atıcılığı sayəsində mühasirədən az itki ilə çıxmışdılar. Döyüşçülər də bir hərəkət etməmişdən qabaq onunla məsləhətləşir, sonra addım atırdılar. Səyyad müharibədə 13 erməni öldürmüşdü. Həmçinin düşmən tərəfin BMP markalı döyüş maşınının izinə düşmüşdü. Ermənilər o maşınla sərhəddə kəşfiyyat aparıb bölmələrimizi atəşə tuturdular. Təəssüf ki, bütün səylərinə baxmayaraq, Səyyad maşını ələ keçirə bilmədi. Son döyüşü 1992-ci il mayın 25-i oldu çöl göyərçininin. Mil dağı uğrunda gedən döyüşdə snayperlə vuruldu və gözləri Sədərək səmalarına baxa-baxa, sülh arzulaya-arzulaya əbədiyyətə qovuşdu.

Göyərçin sülhün rəmzi, xoş xəbərlərin daşıyıcısıdır. Azadlığın carçısı, müstəqilliyin həsrətini çəkirdi Səyyad Əliyev. Əziz şəhidimiz, ruhun rahatlıq tapsın, bu gün işğaldan azad olan torpaqların səmasında sülhünü bəyan edən göyərçinlər bərq vurur. İşğal olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır. Azadlığımız sevincimizə, sevincimiz birliyimizə sarılıb. Sülh məramın gerçək olub... Azadlıq adlı bir sözdən ibarət böyük mənəviyyat daşıyan cümlə ilə.

**Türkan HÜSEYNLİ**

## Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası dekabr ayında da təmin edilmişdir.***

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Naxçıvan şəhər təhsil müəssisələrinə məxsus 27 qazanxanada qaz təsərrüfatından təhlükəsiz istismar edilməsinə nəzarət olunmuş, yanğın-partlayış və dəm qazı ilə zəhərlənmələrin qarşısının alınması məqsədilə 11 müəssisədə 201 nəfərin, payız-qış mövsümünə hazırlıqla bağlı 34 müəssisədə 822 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Standarta uyğun olmayan qaz cihazlarının satışının qarşısının alınması üçün 27 ticarət ob-



yektinə baxış keçirilmiş və sahibkarlarla söhbət aparılmışdır.

Muxtar respublikanın şəhər və rayonlarında pandemiyaya qarşı dezinfeksiya tədbirləri davam etdirilərək ümumilikdə, 4 milyon 631 min kvadratmetr sahədə dezinfeksiya işi aparılmışdır.

Hesabat ayında muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 95 obyektdə diqqətli, 199 obyektdə nəzəri, 6 obyektdə isə məqsədli yoxlama keçirilmiş, 9 min 94 nəfər yanğına qarşı təlimatlandırılmış, 775 qazanxanada texniki və yanğın təhlükəsizliyi tədbirlərinə əməl olunmasına baxış keçirilmişdir. Həmçinin 3 min 481 yaşayış evinə də baxılmış, yanğın cəhətdən təhlükəli olan 52 elektrik, 140 şlanqla çəkilmiş qaz xətti dəyişdirilmiş, 28 suqızdırıcısının və 159 tez qatlanan tüstü borusunun istismarı dayandırılmış, 112 mənzilin tüstü bacası və havaçəkən kanalları təmizlənmişdir. Ay ərzində 55 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən yeni tikilən 6 obyektin istismara hazırlığı yoxlanılaraq "İstismara hazırlıq aktı" verilmiş, tikinti işləri aparılan obyektlərin işçi və layihə sənədlərinin ekspertizası həyata keçirilərək 8 obyektin işçi layihə sənədlərinə rəy verilmiş, 21 obyektin layihə sənədlərinin üzərində iş işlər davam etdirilmişdir.

Dekabr ayında muxtar respublika ərazisində müxtəlif fövqəladə hallarla bağlı daxil olmuş məlumatlara çevik reaksiya verilərək hadisələrin qarşısı vaxtında alınmış və vətəndaşlara dəymiş zərər minimuma endirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Torpaq mülkiyyətçilərinin nəzərinə!

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, 2021-ci ildə "Gəmiqaya Taxıl Məhsulları" MMC və digər taxıl qəbulu müəssisələri tərəfindən tələbatdan artıq istehsal olunmuş buğda, arpa və qarğıdalı məhsulları aşağıda qeyd edilmiş qiymətlərlə satın alınacaqdır:

*Arpa – 35 qəpik*
*Qarğıdalı – 40 qəpik*
*Buğda – 42 qəpik*

Bildirilir ki, bu məhsulların satın alınması aşağıda göstərilən tarixlərdən başlanılacaqdır:

*Arpa – 10 iyun 2021-ci il tarixdən*
*Buğda – 10 iyul 2021-ci il tarixdən*
*Qarğıdalı – 20 sentyabr 2021-ci il tarixdən*

Əkinçilərin nəzərinə çatdırılır ki, təqdim olunan məhsulun ödənişi yerində həyata keçiriləcəkdir.

Yaranacaq suallarla bağlı aşağıda göstərilən əlaqə nömrələrinə müraciət edə bilərsiniz:

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi – (036)-545-75-77, (050)-615-58-25***
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi – (036)-545-20-39, (050)-250-10-63***
***"Gəmiqaya Taxıl Məhsulları" MMC – (070)-250-85-81***

### *İtmişdir*

Şərur rayonu, Yuxarı Aralıq kəndində yaşamış Məmmədrzayev Həsən Qənbər oğluna məxsus 102013005130 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 52